# GÖYƏRÇİN



### Yanvar

| | | | | | |
|---|---|---|---|---|---|
| B.e. | 2 | 9 | 16 | 23 | 30 |
| Ç.a. | 3 | 10 | 17 | 24 | 31 |
| Ç. | 4 | 11 | 18 | 25 | |
| C.a. | 5 | 12 | 19 | 26 | |
| C. | 6 | 13 | 20 | 27 | |
| Ş. | 7 | 14 | 21 | 28 | |
| B. | 1 | 8 | 15 | 22 | 29 |

### Fevral

| | | | | |
|---|---|---|---|---|
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | |
| 2 | 9 | 16 | 23 | |
| 3 | 10 | 17 | 24 | |
| 4 | 11 | 18 | 25 | |
| 5 | 12 | 19 | 26 | |

### Mart

| | | | | |
|---|---|---|---|---|
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | 31 |
| 4 | 11 | 18 | 25 | |
| 5 | 12 | 19 | 26 | |

### Aprel

| | | | | | |
|---|---|---|---|---|---|
| B.e. | | 3 | 10 | 17 | 24 |
| Ç.a. | | 4 | 11 | 18 | 25 |
| Ç. | | 5 | 12 | 19 | 26 |
| C.a. | | 6 | 13 | 20 | 27 |
| C. | | 7 | 14 | 21 | 28 |
| Ş. | 1 | 8 | 15 | 22 | 29 |
| B. | 2 | 9 | 16 | 23 | 30 |

### May

| | | | | |
|---|---|---|---|---|
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | 31 |
| 4 | 11 | 18 | 25 | |
| 5 | 12 | 19 | 26 | |
| 6 | 13 | 20 | 27 | |
| 7 | 14 | 21 | 28 | |

### İyun

| | | | | |
|---|---|---|---|---|
| | 5 | 12 | 19 | 26 |
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | |
| 4 | 11 | 18 | 25 | |





### İyul

| | | | | | |
|---|---|---|---|---|---|
| B.e. | | 3 | 10 | 17 | 24 | 31 |
| Ç.a. | | 4 | 11 | 18 | 25 | |
| Ç. | | 5 | 12 | 19 | 26 | |
| C.a. | | 6 | 13 | 20 | 27 | |
| C. | | 7 | 14 | 21 | 28 | |
| Ş. | 1 | 8 | 15 | 22 | 29 | |
| B. | 2 | 9 | 16 | 23 | 30 | |

### Avqust

| | | | | |
|---|---|---|---|---|
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | 31 |
| 4 | 11 | 18 | 25 | |
| 5 | 12 | 19 | 26 | |
| 6 | 13 | 20 | 27 | |

### Sentyabr

| | | | | |
|---|---|---|---|---|
| | 4 | 11 | 18 | 25 |
| | 5 | 12 | 19 | 26 |
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | |

### Oktyabr

| | | | | | |
|---|---|---|---|---|---|
| B.e. | 2 | 9 | 16 | 23 | 30 |
| Ç.a. | 3 | 10 | 17 | 24 | 31 |
| Ç. | 4 | 11 | 18 | 25 | |
| C.a. | 5 | 12 | 19 | 26 | |
| C. | 6 | 13 | 20 | 27 | |
| Ş. | 7 | 14 | 21 | 28 | |
| B. | 1 | 8 | 15 | 22 | 29 |

### Noyabr

| | | | | |
|---|---|---|---|---|
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | |
| 4 | 11 | 18 | 25 | |
| 5 | 12 | 19 | 26 | |

### Dekabr

| | | | | |
|---|---|---|---|---|
| | 4 | 11 | 18 | 25 |
| | 5 | 12 | 19 | 26 |
| | 6 | 13 | 20 | 27 |
| | 7 | 14 | 21 | 28 |
| 1 | 8 | 15 | 22 | 29 |
| 2 | 9 | 16 | 23 | 30 |
| 3 | 10 | 17 | 24 | 31 |



# 2006

## YENİ İLİNİZ MÜBARƏK!





*Rafiq Yusifoğlu*

## RASİM ƏMİ TAR ÇALIR

Rasim əmi «Rast» çalır,
Rahat çalır, rast çalır.
Gözlərinin önündə
Ağa çayı çağlayır.
Pərdələrdə uyuyan
Neçə niskil ağlayır.
Bərgüşad coşub-daşır,
Həkəri haray çəkir.
Qəlbinə ayrılığın
Dumanı hər saniyə,
Hər saat, hər an çökür.
Gör necə sığınıbdır
Mizrab onun ovcuna?!
O çaldıqca, «Cahargah»
Dönür yol ayrıcına.
Hara getsən, bu yollar
Doğma yurdda birləşir.
Gözü yolda qalan kənd
Ürəyində yerləşir.
O çalanda «Şüştər»i,
O çalanda «Qatar»ı,
Kəndimizə yol alır
Həsrətimin qatarı.
Elə bil yer altından
Boylanır Bəyaz qarı.
Saçlarına ələnib,
Həsrətin bəyaz qarı.
Toxunduqca əl simə,
Simlər düşür tilsimə.
Rasim əmi tar çalır,
Qəlbində qubar çalır...

## BƏNÖVŞƏ GÜLÜ

Bir göl var burda,
Bənövşə gölü.
Sahillərində
Bənövşə gülür.

Ona baxanda
Sevinir ürək.
Bu göl dağların
Qoynunda çiçək.

Xəfif meh əsdi,
Sular oynadı.
Bənövşə gölü
Sanki aynadı.

Sığınıbdır o,
Dağın köksünə.
Ağaclar suda
Baxır əksinə.

Qoynunda üzür
Ördəklər, qazlar.
Sahillərində
Oğlanlar, qızlar.

Bu gölün adı
Bənövşə gölü.
Demə neyləyir
Bənövşə gölü?!

Suyundan gəlir
Bənövşə ətri,
Onunçun belə
Əzizdi xətri.

Hey cilvələnir
Təpə üstündə,
Meşə içində.
Faydalıdır o,
İnsan üçün də,
Meşə üçün də.



Rəssam
Mətanət

## QURU ÇAY

-Quru çay, ay quru çay,
Şərəfini qoru çay!
Ya dağdan su tap gətir,
Ya bir yolluq quru, çay!

-Zarafat eləyirdim,
Sən incimə sözümdən.
Dağların şıltaqlığı
Yayınarmı gözümdən?!

-Elə salmısan məni?-
Gözündən yayınmaz tük.
Hünərin çatırsa get
Yatağımda bir ev tik.

Yatağın dərin olsun,
Quru çay, ay Quru çay!
Qəflətən gələn seldən
Sahilləri qoru, çay!



## BU YOL LƏZƏYƏ GEDİR

Bu yol Ləzəyə gedir,
Üzü qüzeyə gedir.
Dağlar verib baş-başa,
Söykək olub daş-daşa.
Yamaclarda çiçəklər
Sayrışır ulduz kimi.
Çağlayan çeşmələrin
Suyu sərin, buz kimi.
Hər bulaqdan bir ovuc
Su içməsən, ar olar.
Burda nağıl danışır
Çiçəklərə arılar.
İki dvğın üstündə
Şəlalələr üz-üzə.
Dəyişən mənzərələr
Biri-birindən gözəl.
Bu yol Ləzəyə gedir,
Üzü qüzeyə gedir.

# ÇƏKİLƏN ZƏHMƏTİN ƏVƏZİ

İsveç nağılı

Bir nəfər itən atını axtarmağa gedir. O, meşələrdə, çəmənlərdə gəzə-gəzə gəlib bir dağa çıxır. Sıldırımdan baxanda görür ki, yekə bir ilanın quyruğu dağdan düşən bir daşın altında qalıb.

İlan yalmana-yalmana, yalvara-yalvara insana deyir:

-Mənim quyruğumu daşın altından çıxarsan, zəhmətinin əvəzini artıqlaması ilə verərəm.

Kişi bir ağacla daşı qaldırır və ilanın quyruğunu oradan çıxarır. Gözləyir ki, ilan onu necə mükafatlandıracaq.

O, ilandan soruşur:

-Zəhmətə görə haqq-hesab nə deməkdir?

İlan fısıldayıb acıqlı-acıqlı deyir:

-Ölüm! İndi mən səni öldürəcəyəm.

İnsan razılaşmayıb deyir:

-Yox,hələ bunun nə demək olduğunu kimdənsə soruşmaq lazımdır.

Onlar birlikdə gedirlər. Qarşılarına bir ayı çıxır. İnsan ondan soruşur:

-Çəkilən zəhmətə görə haqq-hesab nə deməkdir?

-Çəkilən zəhmətə görə haqq-hesab ölüm deməkdir.

İlan sevinə-sevinə deyir:

-Hə, gördün, indi mən səni yeyəcəm.

İnsan xahiş edir ki, gəl bir az da gedib başqasından soruşaq.

Onların qarşısına canavar çıxır. İnsan ondan soruşur:

-Çəkilən zəhmətə görə haqq-hesab nə deməkdir?

Canavar fikirləşmədən cavab verir:

-Ölüm.

-İnsan ilanı yenə də dilə tutur. Deyir ki, gedib bir nəfərdən də soruşaq. Əgər o da «ölüm» desə, məni öldürərsən.

İlan razılaşır. Onlar birlikdə yollarına davam eləyirlər. Qarşılarına bir tülkü çıxır. İnsan ondan soruşur:

Rəssam Afər



-Tülkü lələ. Çəkilən zəhmətə görə haqq-hesab nə deməkdir?

Tülkü də o birilər kimi «ölüm» cavabı versə də, soruşur ki, əvvəlcə deyin görək başınıza nə iş gəlib?

İnsan hər şeyi olduğu kimi danışır. Tülkü deyir ki, ədalətli qərar vermək üçün məni gərək həmin yerə Aparasınız.



Onlar birlikdə həmin yerə gedib çıxırlar. İlan deyir ki, bax, mənim quyruğum o daşın altında qalmışdı.

Tülkü insana deyir ki, daşı qaldır, ilan quyruğunu onun altına qoysun. Onlar belə də edirlər. İlan quyruğunu daşın altına qoyanda, tülkü deyir ki, daşı əvvəlki kimi burax.

İnsan daşı buraxır. Quyruğu daşın altında qalan ilan zarıyır. Tülkü ondan soruşur:

-Sənin quyruğun bu cür daşın altında qalmışdı, eləmi?

-Bəli.

-Bax, çəkilən zəhmətə görə haqq - hesab budur. İndi siz haqq-hesabı əməlli-başlı çürütdünüz, bərabər oldunuz.

Tülkü ilə insan çıxıb gedirlər. Nankor ilan isə öz layiqli cəzasını alır.

*Tərcümə edib işləyəni: R. Əliyev.*